**AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ**

**ƏMR**

**18 sentyabr 2023-cü il** **3-15/3-2-539/2023**

**Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə Seçki Komissiyasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın 5.2-ci bəndinin və "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun 6.1-ci maddəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.2-ci, 2.3-cü və 2.4-cü bəndlərinə əsasən vətəndaş cəmiyyəti institutlarının təqdim etdiyi təklifləri nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədi ilə aşağıdakı tərkibdə Seçki Komissiyası yaradılsın:

| | | |
|---|---|---|
| Elxan Kərimov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Daxili nəzarət şöbəsinin müdiri; |
| Əsəd İsmayılov | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət qulluğu və kadrlar şöbəsinin müdiri; |
| Mürvət Babayev | - | Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquq şöbəsinin müdir müavini; |

Elektron Sənəd Dövriyyəsi Sistemi
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.e-gov.az/info/esign/c5CaBQBolmPOK6OPjsEmFyo8ChBK9ovqCcuAggkgK2k%3D

Tərənə Gözəlova - Azərbaycan Respublikası Energetika Nazirliyinin Daxili nəzarət şöbəsinin aparıcı məsləhətçisi;

Fuad Hacızadə - Beynəlxalq Ekoenergetika Akademiyasının vitse prezidenti;

Mərziyyə Ağayeva - “Avroasiya Enerji və Davamlı inkişaf" İctimai Birliyinin sədri;

Ceyhun Axundov - “SOCAR-Media” İctimai Birliyinin üzvü;

Gülnarə Məmmədova - "Alternativ Enerji Araşdırmaları Mərkəzi" İctimai birliyinin Dövlət qurumları və bələdiyyələrlə iş şöbəsinin müdiri;

Tələt Qəribov - “Sağlam həyata doğru” Ekoloji İctimai Birliyinin üzvü.

2. Ümumi şöbə bu əmrin surətinin Seçki Komissiyasının üzvlərinə çatdırılmasını təmin etsin.

3. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə həvalə olunsun.

*Əsas: Beynəlxalq Ekoenergetika Akademiyasının 16.05.2023-cü il tarixli elektron, “Sağlam həyata doğru” Ekoloji İctimai Birliyinin 10.07.2023-cü il tarixli 18 nömrəli, Socar-Media” İctimai Birliyinin 14.07.2023-cü il tarixli SM009-23 nömrəli, "Alternativ Enerji Araşdırmaları Mərkəzi" İctimai Birliyinin 04.09.2023-cü il tarixli 2-4-2/1-0923 nömrəli, "Avroasiya Enerji və Davamlı İnkişaf" İctimai Birliyinin 07.09.2023-cü il tarixli məktubları.*

**Nazir** **Pərviz Şahbazov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
İmzalayan şəxs: Pərviz Şahbazov / Rəhbərlik / Nazir

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.esd.e-gov.az/info/esign/c5CaBQBolmPOK6OPjsEmFyo8ChBK9ovqCcuAggkgK2k%3D